# mr.Sivafix®

## Sement əsaslı hazır suvaq
## Məhsul kodu: 50.50.001




### Məhsul haqqında
**mr.Sıvafix®** sement əsaslı hazır suvaq

### İstifadə sahəsi
- ✔ Daxili və xarici məkanlarda hər növ beton, kərpic və b. səthlərin suvanmasında və təmirində
- ✔ Divar və tavanların suvanmasında
- ✔ Mövcud suvaqların təmirində
- ✔ Kobud suvaq vurulmuş səthlərin düzəldilməsində
- ✔ Təbii daş, kərpic və divar dərzlərinin təmirində

### Texniki göstəriciləri

| Materialın tərkibi | Xüsusi sement və mineral dolğular |
|---|---|
| Rəngi | Boz |
| Tətbiq qalınlığı | Maks. 10mm |
| Tətbiq ediləcək səthin istiliyi | +5$^0$C +30$^0$C |
| İstifadə müddəti | 30 dəq. |
| Tam müqavimət müddəti | 7 gün |

Yuxarıdakı qiymətlər +23$^0$C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### Üstünlükləri
- ✔ Asan hazırlanır və asan tətbiq olunur
- ✔ Şaquli tətbiq zamanı sürüşmə baş vermir
- ✔ İstifadə müddəti uzundur
- ✔ Yüksək yapışma xüsusiyyətinə sahibdir

### İstifadə təlimatı
Səthin hazırlanması;
Tətbiq sahəsinin sağlam, quru, təmiz, tozsuz və daşıyıcı olmasına diqqət edilməlidir. Səth, yapışmanı zəiflədəcək bütün yağ, qatı sürtgü yağı, pas və parafin qalıqlarından təmizlənməlidir. Səthdə artıq qırıntılar olmamalı və səth nəmə doymuş olmalıdır. Donmuş, əriyən və ya 24 saat ərzində donmaq təhlükəsi olan sahələrdə tətbiq olunmamalıdır. Tətbiq olunacaq səthin istiliyi +25$^0$C-dən çoxdursa səth nəmləndirilməlidir.

### Hazırlanması
İstifadə olunacaq su təmiz bir qaba doldurulur və həmin qaba mr.Sivafix® yavaş- yavaş əlavə edilərək 400- 600 dövr/dəq-lik bir mikserlə 3-5 dəqiqə, topaqlar həll olunana qədər qarışdırılır. Təxminən 3-5 dəqiqə dincəlməyə qoyulduqdan sonra təkrar 30 saniyə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir.

### Qarışdırma nisbəti

| | |
|---|---|
| 1 kq toz üçün | ~ 0,22 |
| 50 kq toz üçün | ~ 11,00 |

### Sərfiyyat
1 mm qalınlıq üçün 1,40 kq/m$^2$ toz məhsul

### Alətlərin təmizlənməsi
Tətbiqdən sonra istifadə edilən alət və ləvazimatlar su ilə təmizlənməlidir. mr.Sıvafix® bərkidikdən sonra ancaq mexaniki şəkildə səthdən təmizlənə bilər.

### Saxlama şərtləri
Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə saxlanmalıdır.

### Saxlama müddəti
Düzgün saxlama şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

### Təhlükəsizlik tədbirləri
Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək

və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalara xaricindəki və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: 50 kq ±2%**